*YADDAŞ - MƏRHUMLAR ANILIR...*

# İSMAYILZADƏ TOFİQ ƏLİ OĞLU – 90

***(1930 - 2004)***



Tofiq İsmailzadə 1 mart 1930-cu ildə anadan olmuşdur. Moskva Dövlət Universitetinin məzunu, fizika-riyaziyyat elmləri doktoru olan və yüksək təşkilatçılıq bacarığı ilə seçilən Tofiq İsmayılzadə qısa müddət ərzində Azərbaycanın görkəmli geofizik mütəxəssisləri arasında böyük rəğbət qazanmışdır. O, Azərbaycanda yerin maqnetizm və paleomaqnetizm istiqamətinin inkişafı təşəbbüskarlarından biri olmuş, bu sahədə elmi məktəb yaratmışdır. Onun rəhbərliyi və iştirakı ilə zəlzələlərin proqnozlaşdırılmasının elmi əsası işlənib hazırlanmış, yeni geofiziki aparatların yaradılması sahəsində mühüm işlər görülmüşdür. Alimin əsas elmi nailiyyətlərindən biri həmmüəllifi ilə birgə Azərbaycanın Mezokaynozoy çöküntülərinin regional paleomaqnit şkalasının qurulması olmuşdur. T.İsmayılzadənin tədqiqatları nəticəsində əldə olunan paleomaqnit qütbləri Dünya Məlumatlar Mərkəzinin materiallarına daxil edilmişdir. O, ilk dəfə olaraq istənilən geoloji çöküntülərin yaşı üçün stabil paleomaqnit vektoru almağa imkan verən yeni Hc (dağıdıcı sahə) parametrini əldə edərək tətbiq etmişdir.

Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutunda respublika ərazisində geofiziki tədqiqatların aparılması məqsədilə yer fizikasının xüsusi sektoru yaradılmışdır. T.İsmayılzadənin rəhbərlik etdiyi bu sektorda neft-qazlılığın perspektivliyinin öyrənilməsi üçün stratiqrafiya, litologiya, tektonika sahəsində, həmçinin faydalı qazıntı yataqlarının axtarışının elmi əsasının işlənilməsi üzrə kompleks geoloji-geofiziki ekspedisiyalar yaradılmışdır. T.İsmayılzadə 40 il ərzində Azərbaycanda yer fizikası sahəsində yerinə yetirilən tədqiqatlara rəhbərlik etmişdir.

Alimin redaktəsi altında "Azərbaycanın petro-sıxlıq xəritəsi", "Azərbaycanın neftli-qazlı və perspektivli strukturları atlası" nəşr edilmişdir. T.İsmayılzadə 200-ə yaxın elmi əsərin, o cümlədən bir sıra monoqrafiyaların, 24 ixtiranın müəllifidir.

O, 1979-1992-ci illərdə Ümumittifaq Elmi-Tədqiqat Geofizika İnstitutunun Cənub (Azərbaycan) filialının direktoru vəzifəsində çalışmış və bu illər ərzində rəhbərlik etdiyi kollektivdə böyük rəğbət və hörmət qazanmışdır. Onun təşəbbüsü əsasında filialda geofiziki tədqiqatların müxtəlif istiqamətləri üzrə yeni-yeni elmi laboratoriyalar açılmışdır.

Gənc elmi kadrların hazırlanmasına böyük diqqət yetirən alim 17 elmlər namizədi və doktorluq dissertasiyaları üzrə elmi rəhbər olmuşdur. Elmi tədqiqatlarına görə T.İsmayılzadə Azərbaycanın Əməkdar elm və texnika xadimi adına layiq görülmüşdür.

Xeyirxah və nəcib insan kimi Tofiq müəllim daim həmkarlarının, tələbələrinin və onu tanıyanların xatirəsində yaşayacaq.

Tofiq müəllim 1 iyul 2004-cü ildə vəfat etmişdir.

***Allah rəhmət eləsin!***

***SOCAR Geofizika və Geologiya İdarəsinin əməkdaşları***
***Azərbaycan Milli Geofizika Komitəsi İB***
***"Azərbaycanda Geofizika Yenilikləri" jurnalının redaksiya heyəti***